# Milli ideyaların və dövlətçilik dəyərlərinin önündə

*Sıralarında fəxr hissi ilə təmsil olunduğumuz və yarandığı ilk gündən məramında dövlətçilik maraqları, milli mənafelər dayanan YAP-ın 1992-ci ilin noyabrında siyasi meydana çıxması xalqımızın ümummilli lideri Heydər Əliyevin ən yeni tariximizdə Azərbaycanın azadlığı və xilası ilə bağlı şərəfli missiyasının əsas mərhələlərindən birini təşkil edir. 1990-cı ilin iyulundan Naxçıvandan başlanan bu missiya ilə xalqımızın azadlıq mücadiləsini yeni mərhələyə yüksəldən Heydər Əliyev YAP-ın yaranması ilə müstəqil Azərbaycanı qurtuluşa və inkişafa aparan tarixi yolun əsasını qoydu.*



Ötən əsrin doxsanıncı illərin əvvəllərinin ağır və böhranlı günlərini orta və yaşlı nəslin nümayəndələri yaxşı xatırlayırlar. İqtidarda olan qüvvələrin yarıtmaz hakimiyyəti, faktiki olaraq ölkədəki hakimiyyətsizlik nəticəsində siyasi xaosun və anarxiyanın baş alıb getməsi, sosial-iqtisadi tənəzzülün sürətlə dərinləşməsi cəmiyyətimizin dərin sarsıntısına və mənəvi iztirabına səbəb olmuşdu. Təhlükəli proseslər Azərbaycanı məhvə, uçuruma, müstəqilliyimizin itirilməsinə aparırdı. Bütün bunların Ermənistanla müharibə şəraitində baş verməsi, üstəlik, Qarabağda erməni separatizminin baş qaldırması dövlətimizi və xalqımızı ağır təhdidlərlə üzə-üzə qoymuşdu.

Təbii ki, belə bir şəraitdə xalq öz taleyinə biganə qala bilməzdi və ölkəmizin hər yerindən Naxçıvana – görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevə ünvanlanan müraciətlər də bunu təsdiq edirdi. Bu müraciətlər, insanların Naxçıvana gedərək Heydər Əliyevlə görüşmələri xalqın ulu öndərə olan böyük inam və etimadından irəli gəlirdi. Çünki buna qədər vətəndaşlar Heydər Əliyevdən yalnız dövlətə və xalqa layiqli xidmət nümunələri görmüşdülər. Hələ sovet illərində Heydər Əliyev Azərbaycanı keçmiş ittifaqın geridə qalmış kənd təsərrüfatı respublikasından inkişaf etmiş sənaye respublikasına çevirmişdi. Nə qədər ki, Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycana qarşı təcavüzkar planlarını işə sala bilmirdilər.

Sovet hakimiyyətinin hələ mövcud olduğu 1990-cı ilin noyabr ayında isə Heydər Əliyev Naxçıvanda üçrəngli bayrağımızı ucaltmaqla, Naxçıvanın adından "sovet və sosialist" sözlərini çıxarmaqla xalqımızın öz müstəqilliyi uğrunda mübarizəsini daha da gücləndirmişdi. Eyni zamanda, Heydər Əliyev müstəqilliyimizin ilk illərində Naxçıvanın etibarlı müdafiəsini təşkil etmiş, Ermənistan tərəfindən işğal olunmasına sərkərdə qətiyyəti ilə imkan verməmişdi. Təbii ki, bütün bunları xalq bilir, görür və ona görə inanırdı ki, Azərbaycanın düçar olduğu bütün problemlərdən, üzləşdiyi bütün təhlükələrdən yalnız Heydər Əliyev xilas edə bilər.

Artıq 1992-ci ilin payızına doğru cəmiyyətdə mütləq üstünlüklə belə bir rəy və arzu formalaşmışdı ki, Azərbaycanın nicatı, xilası Heydər Əliyevin siyasi proseslərə fəal iştirakından keçir. Respublikamızın hər yerində Heydər Əliyevin rəhbərliyi ilə yeni siyasi partiyanın yaradılması təşəbbüslərinin irəli sürülməsi də məhz bundan irəli gəlmişdi. Bu baxımdan 1992-ci ilin oktyabr ayında ziyalıların Heydər Əliyevə yeni siyasi partiyanın yaradılması ilə bağlı ünvanladıqları müraciət, əslində, bütün Azərbaycan xalqının arzularının ifadəsi idi. "Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalı adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir" – deyə müraciətdə deyilirdi.

O dövrkü hakimiyyət orqanları nə qədər manecilik törətmək istəsələr də, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yeni siyasi partiyanın yaradılmasını əngəlləməyə cəhd göstərsələr də, xalqın qarşısında dayana bilmədilər. Beləliklə, 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının təsis edilməsi Heydər Əliyevin Azərbaycanı xilas missiyasının ilk addımı oldu. Heydər Əliyevə inam o qədər güclü idi ki, qısa müddətdə partiyanın sıraları sürətlə genişləndi, respublikanın hər yerində yerli təşkilatları yaradıldı. Təsadüfi deyil ki, cəmi bir neçə ay içərisində YAP respublikadakı siyasi partiyalar arasında sosial bazasına görə lider mövqedə dayanırdı. Yaradıldıqdan bir ay sonra YAP-ın Ədliyyə Nazirliyində qeydə alınması da partiyanın qısa müddətdə siyasi gücə çevrilməsinin təcəssümü idi.

1993-cü ilin iyun ayında Azərbaycan uçurumun astanasında idi. Bir tərəfdən torpaqlarımız müdafiəsiz qalmış, digər tərəfdən separatçılığın ən yüksək həddə çatması nəticəsində ölkəmizin parçalanması təhlükəsi yaranmışdı. Həmin günlərdə tariximizin ən faciəli hadisələrindən biri kimi, Gəncədə qardaş qırğını baş vermişdi. Belə bir vaxtda xalqın istək və arzusu ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev özünün xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi. Ulu öndər müdrikcəsinə hərbi-siyasi qarşıdurmaların, qardaş qırğınının, Azərbaycanın uçuruma yuvarlanmasının qarşısını aldı. Məhz Heydər Əliyevin Bakıya gəlişi ilə bütün xalq rahat nəfəs aldı.

Ümummilli liderin siyasi hakimiyyətə gəlişi ilə Yeni Azərbaycan Partiyasının da fəaliyyəti yeni mərhələyə qədəm qoydu. Müxalifət partiyasından hakim partiyaya çevrilməsi YAP-a öz proqramını, məqsəd və məramını tam şəkildə həyata keçirməyə imkan yaratdı. Dahi siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə müasir və müstəqil dövlətçiliyimizin əsaslarının formalaşması prosesində, bütün sahələrdə həyata keçirilən islahatlarda YAP hakim partiya kimi fəal iştirak etdi, inkişafa özünün layiqli töhfələrini verdi. Yeni tipli bu siyasi qurumun hakim partiya statusunu alması həm də ölkədəki siyasi münasibətlərdə yeni mədəniyyət formalaşdırdı. Respublikamızda sivil yola siyasi mübarizə aparmaq ənənələri bərqərar oldu.

Tarixi təcrübə göstərir ki, adətən partiyalar ayrıca olaraq hansısa siyasi qrupu və ya sosial zümrələri birləşdirməklə konkret maraqlar əsasında formalaşır və fəaliyyət göstərir. Lakin Yeni Azərbaycan Partiyası tamamilə fərqli siyasi yanaşmanı özündə əks etdirən bir siyasi təşkilatdır. Konkret şəkildə desək, Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır. Çünki YAP-ın sıralarında cəmiyyətinin sosial statusundan asılı olmayaraq bütün zümrələri bir araya gəliblər.

Fəxrlə deməliyik ki, bu partiyanın tərkibində böyük bir gənclik ordusu birləşib. YAP-ın sıralarında təmsil olunan ağsaqqallar öz fəaliyyətləri ilə YAP-ın məqsəd və məramlarının həyata keçməsinə layiqli töhfələr verirlər. YAP sıralarında on minlərlə qadının olması ölkəmizdə qadın hərəkatının inkişafında böyük rol oynayır. Bu baxımdan ulu öndər Heydər Əliyevin yaratdığı YAP-ın sıralarında 770 mindən artıq vətəndaşımızın birləşməsi bu siyasi təşkilatın bütün xalqın partiyası olmasının real təsdiqi sayıla bilər.

2003-cü ildə keçirilən prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına müraciət edən ulu öndər Heydər Əliyev demişdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir". Həmin il keçirilən seçkilərdə İlham Əliyevin qələbə qazanması xalqımızın Heydər Əliyev ideyaları ətrafında səfərbər olmasının, Yeni Azərbaycan Partiyasına etimadının təcəssümü oldu.

Ötən 19 ilin mənzərəsi göstərir ki, Prezident İlham Əliyev lider qətiyyəti ilə Azərbaycanın yüksəlişini təmin edir, milli maraq və mənafelərimizi layiqincə qoruyur. Bütün bunlar isə əlbəttə ki, həm də cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının uğurlarıdır. Bu baxımdan Yeni Azərbaycan Partiyasının nailiyyətlərinin əsasında İlham Əliyevin Prezidenti kimi qürurdoğuran siyasi fəaliyyəti dayanır. İlham Əliyev ölkəmizə uğurlu rəhbərliyi ilə həm də Yeni Azərbaycan Partiyasını gücləndirir, sıralarını möhkəmləndirir. Təsadüfi deyil ki, Azərbaycan xalqı bütün seçkilərdə də Yeni Azərbaycan Partiyasının namizədlərinə dərin etimad göstərir.

Bütün bunlara görə Yeni Azərbaycan Partiyası hər bir üzvü partiyanın yaranmasının 30 illik yubileyini yüksək əhval-ruhiyyədə qarşılayır. Vətən müharibəsində qazandığımız Zəfər isə yubiley sevincimizi daha möhtəşəm, daha təntənəli edir. Gedilən 30 illik yol göstərir ki, Yeni Azərbaycan Partiyası hər zaman xalqın yeganə siyasi istinad ünvanı olacaq.

**Müşfiq MƏMMƏDLİ,**
**Milli Məclisin deputatı**